Kredo.-2019.-11 aprel.-S.16.

# Möhnətin Sərrafı qəmə bürüdü



*Səyyad SƏRRAF*

## Sənsən

Mən sənin nəyindən küsüm, inciyim,
Dünyamı uçuran, quran da, sənsən.
Cəllad kirpiyinlə hər gün sinəmi,
Yüz yerdən oxlayan, vuran da, sənsən.

Sənsiz damarımda bil, qanım donur,
Günəşim qaralır, ulduzum sönür.
Bəzən də şəfqətli təbibə dönür,
Yaramı sayıyan, yaran da, sənsən.

Sən şair könlümün nazlı baharı,
Həsrəti, sevinci, dərdi, qubarı.
Sevdamın güllərin donduran qarı,
Qasırğa, fırtına, boran da, sənsən.

Sərraf, könül tarın bir də çalınmaz,
Alınmaz qaladır könül, alınmaz.
Gülündən ayrılan bülbül şad olmaz ,
Qəlbi söküm-söküm viran da, sənsən.

## Gəlmişəm

Həsrətin qapısın kəsib bu səhər,
Abrın ətəyinə büküb, gəlmişəm.
Qaçıb sığındığı hicran qalasın,
Uçurub başına, söküb, gəlmişəm.

Məni zaman-zaman salsa da dərdə,
Demişəm uzaq dur, ilişmə bir də!
Burnunun üstünə endirib zərbə,
Qaının qabağına tökük, gəlmişəm.

Gördüm bağçasında qəmi tumlayıb,
Quruyub budağı, barı qalmayıb.
Ayrılıq zəmizin biçib, şumlayıb.
Vüsal toxumunu əkib, gəlmişəm.

## Gülüm

Mənim təkəbbürüm, sənin inadın,
Bizi o zirvədən yıxacaq, gülüm!
Hicran üstümüzə atıb kəməndin,
Hər gün məngənə tək sıxacaq, gülüm.

Quş tək qəfəsində çırpınar ürək,
Titrəyər vücudun əsər yarpaq tək.
Göz yaşın gözündən hər gün, ey mələk.
Vüsal həsrətilə axacaq, gülüm.

Möhnətin Sərrafı qəmə bürüdü,
Qərib düşdü, el-el gəzdi, yürüdü.
Ahıyla dənizlər, çaylar qurudu,
Həsrəti dünyanı yaxacaq, gülüm.

## Olsun

Bir qələm ək sən də ömür bağçana
Pöhrələsin, budaq-budaq var olsun.
Su ver içsin qəlbinin bulağından,
Çiçəkləsin dalasında bar olsun.

Hər gün artsın həyat eşqi həvəsi,
Budağından gəlsin bülbül nəğməsi.
İldən-ilə gətirdiyi meyvəsi,
Cənnət barı, alma, əncir, nar olsun.

Ay nurunda ulduz-ulduz parlasın,
Yağış yağsın, şimşək çaxsın gurlasın.
Sərraf, ömrün bağça-bağı, tarlası,
Ətirlənsin, ömrün qoy bahar olsun.

## Deyə

Yoxdur daha güvəndiyim o dağlar,
Qərib könlüm həzin-həzin hey ağlar.
Namərd dünya bir gün məni ayaqlar,
Çün, inandım qüdrətinə çox deyə.

Sakinidir indi qara qarğalar,
Gör ki, hələ qalxıb hara qarğalar?
Vallah, bu dərd ürəyimi parçalar,
Qovuşmağa Yurda, güman yox, deyə.

Bax Qoşqardan Savalana, Ağrıya,
Yandı sinəm dözəmmirəm ağrıya.
Biri tutub, lap min biri doğraya,
Döz, ay Sərraf, yandır onu, yax, deyə.

## Gəl, gəl

Yolunda baş qoyub, candan keçdiyim,
Üstündə titrəyib, əsənim, gəl, gəl !
Min gülün içindən sevib-seçdiyim,
Sünbülü-reyhanım, süsənim gəl, gəl !

Qoynu, gülüstanım, boyu sürahım,
Vur üzümə, əgər varsa günahım.
Yerləri, göyləri yandırar ahım,
Şirin ülfətini kəsənim, gəl, gəl!

Süzdürmə gəl belə qara gözlərin,
Sənsiz qan ağlayar hər gün sözlərim.
Alışar qəlbimdə hicran közləri,
Üzün yana tutub susanım, gəl, gəl!

Sərraf çoxmu çəksin cəfa-cövrünü?
Anlaya bilmədim təhər-tövrünü.
Qəhərdən tükətmə, gülüm, ömrünü,
Bihudə inciyib, küsənim, gəl, gəl!

* * *

İlahi, sən özün qoru, hifz elə.
İlahi, sən özün qoru, hifz elə,
Hər cür bədnəzərdən, mərdiməzardan!
Hələ dərilməyib, qönçədir bu gül!
Qoru hər bəladan, dərddən, azardan.

Huridir, qılmandır insan içində,
Bəşər görünməyib belə biçimdə.
Xəyalı göylərdə, durna köçündə,
Qoru hiylə quran, quyuqazardan.

Leylidir, Şirindir, Zöhrədir o qız,
Nalədir, fəryaddır, qalarsa yalqız,
İlahi, sən onu eyləmə yarsız,
Görən nə anlayar üzgün, bizardan?

Nə yerlər, nə göylər qaldırmaz ahın,
Yeriyər qəlbinə qəm axın-axın.
Bol eylə Sərrafın sən söz mətahın,
Müştəri nə tapar yoxsul bazardan?...

